

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 250 (21.151)

*30 dekabr 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Nərimanov rayonunun Koroğlu Rəhimov küçəsində yeni salınan istirahət parkında yaradılan şəraitlə tanış olublar.

Parkın tikintisi ilə bağlı dövlətimizin başçısına məlumat verildi.

Parkda abadlıq-quruculuq işləri yüksək zövqlə həyata keçirilib, geniş yaşıllıq tədbirləri görülüb. Parkın salınması zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, istirahət məkanı orijinal elementlər və formalarla zənginləşdirilib. Parkın ərazisində müxtəlif fəvvarələr quraşdırılıb. Bu da istirahət məkanına əlavə gözəllik verir.

Parkın altında ikimərtəbəli avtomobil dayanacağı da inşa edilib. Yeraltı dayanacağa enmək üçün iki lift və müasir eskalatorlar quraşdırılıb.

Dövlətimizin başçısı və xanımı burada yaradılan şəraitlə də tanış oldular.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 29-da – Dövlət Neft Fondunun yaradılmasının 15-ci ildönümü günündə bu qurumun yeni inzibati binasının açılışında iştirak ediblər.



# Qarabağlar kənd 1 nömrəli tam orta məktəbinin binası istifadəyə verilmişdir

Muxtar respublikamız Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və yeni ili böyük nailiyyətlərlə qarşılayır. "Muxtariyyət ili"ndə Naxçıvanda bütün sahələrdə olduğu kimi, təhsil infrastrukturunun yenilənməsi istiqamətində də kompleks tədbirlər görülmüşdür. Aparılan quruculuq işləri nəticəsində müasir məktəb binaları tikilmiş, təhsil ocaqlarının maddi-texniki bazası xeyli möhkəmləndirilmişdir. Bu sahədə həyata keçirilən tədbirlər Kəngərli rayonunun Qarabağlar kəndini də əhatə etmişdir.

Dekabrın 29-da – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.



Tədbirdə məktəbin direktoru Mənsim Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən Qarabağlar kəndinə də pay düşmüşdür. Yüksək zövqlə tikilib istifadəyə verilən məktəb binası həm məktəbin kollektivinin, həm də valideynlərin böyük sevincinə səbəb olmuşdur. Müasir şərait, yeni tədris vasitələri kollektivi daha yüksək nəticələrin qazanılmasına ruhlandırır. Mənsim Məmmədov göstərilən dövlət qayğısının müqabilində səylə çalışacaqlarına, şagirdləri təhsilli və vətənpərvər ruhda böyüdəcəklərinə söz vermişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qarabağlar kənd 1 nömrəli tam orta məktəb binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli lider Heydər Əliyevin ***"Bizim məqsədimiz müstəqil Azərbaycanın gələcəyi üçün daha bilikli, zəkalı gənclər hazırlamaqdır"*** fikrini xatırladaraq demişdir: "Ulu öndərimiz gənclərin gələcəyin təminatçıları kimi hazırlanmasını mühüm vəzifə kimi müəyyənləşdirmişdir. Bu sahədə də ümummilli liderimizin yoluna sədaqətini əməli işdə göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə təhsilin inkişafına, məktəb işinə mühüm əhəmiyyət verir, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Qarabağlar kənd 1 nömrəli tam orta məktəbinin binasının istifadəyə verilməsi də ölkəmizdə təhsil infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir".

Ali Məclisin Sədri demişdir: "Məktəbin qarşısında duran əsas vəzifə gəncləri gələcəyə hazırlamaq, onların bacarıq və marağına uyğun peşələrə yiyələnməsinə nail olmaqdan ibarətdir. Ümumtəhsil məktəblərini bitirən hər bir gənc vətənpərvər böyüməklə yanaşı, həm də peşə sahibi olmalıdır. Ölkəmizdə gənclərin orta ixtisas, peşə və ali təhsil almaları üçün hər cür şərait vardır. Gənclərimiz bu şəraitdən səmərəli istifadə etməli, hər hansı bir təhsil pilləsi üzrə öz təhsillərini davam etdirməlidirlər. Ölkəmizin, eləcə də muxtar respublikanın orta məktəblərində yaradılan şərait, tədrisin normal təşkili qarşıya qoyulan bu vəzifələrin icrasına imkan verir. Bu gün istifadəyə verilən Qarabağlar kənd 1 nömrəli tam orta məktəbində də gənclərin hazırlanması üçün hərtərəfli şərait yaradılmış, tədrisin müasir metodlarla tətbiqi təmin edilmişdir. Gənclərimiz bu şəraitdən səmərəli istifadə etməli, müəllimlər şagirdlərlə fərdi qaydada məşğul olmalı, onların hər biri vətənpərvər gənc kimi yetişdirilməlidir".

Məktəbin nailiyyətlərinin uğurlu olduğunu qeyd edən Ali Məclisin Sədri kollektivə təşəkkür etmiş, məktəbdə tarixən formalaşmış təhsil ənənələrinin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirmişdir.

Sonra Ali Məclisin Sədri Kəngərli rayon ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan bir qrup şagirdə kompüter dəsti hədiyyə etmişdir.

Açılışı bildirən lent kəsildikdən sonra məktəb binasına baxış olmuşdur.

Məlumat verilmişdir ki, məktəb 648 şagird yerlikdir. 4 mərtəbədən ibarət olan məktəbdə 5-i elektron lövhəli olmaqla, 36 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 şahmat, 2 kompüter, 2 müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır.

Muxtar respublikada məktəb kitabxanalarının müasir tələblər səviyyəsində qurulması diqqət mərkəzində saxlanılır. Qarabağlar kənd 1 nömrəli tam orta məktəbinin kitabxanası da zəngin fonda malikdir. Burada 8 mindən çox dərslik və bədii ədəbiyyat vardır.

Ali Məclisin Sədri 1-ci sinif şagirdlərinin dərs prosesi ilə maraqlanmışdır. Bildirilmişdir ki, bu il məktəbin birinci sinfinə 28 şagird qəbul olunmuşdur. Məktəbdə sinif otaqlarının yaş pillələrinə uyğun yerləşdirilməsi aşağı sinif şagirdlərinin tədris metodlarını daha yaxşı qavramağa, eləcə də bilik, bacarıq və dünyagörüşlərini inkişaf etdirməyə imkan verir.

Kompüter siniflərində müasir tədris imkanları yaradılmış, 38 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuşdur.

Elektron lövhələrin təhsildə tətbiqi dərslərin daha səmərəli mənimsənilməsinə xidmət edir. Ali Məclisin Sədri elektron lövhəli sinifdə muxtar respublikanın 206 ümumtəhsil məktəbi ilə Bəhruz Kəngərli Muzeyi arasında videobağlantı vasitəsilə keçilən dərsi izləmiş, Naxçıvan tarixi və bu torpağın yetirmələri olan görkəmli şəxsiyyətlər haqqında elektron dərsliklərin hazırlanmasının əhəmiyyətini vurğulamışdır.

Məktəbin kimya-biologiya və fizika laboratoriyalarında da müasir tədris şəraiti yaradılmışdır.

Muxtar respublikada gənc nəslin hərtərəfli inkişafına hesablanmış məqsədyönlü tədbirlər həyata keçirilir. İdmanın inkişafı və kütləvi xarakter alması istiqamətində görülən işlər də bu məqsədə xidmət edir. Məktəbdə istifadəyə verilən müasir idman zalı və açıq idman qurğuları, eləcə də şahmat otaqları fiziki və əqli cəhətdən sağlam gənclərin yetişdirilməsinə şərait yaradacaqdır.

Qarabağlar kənd 1 nömrəli tam orta məktəbində şagirdlər ilkin hərbi hazırlıq fənninə böyük maraq göstərir. Ötən tədris ilində məktəbin 3 şagirdi Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur. Məktəbdə müasir avadanlıqlarla təchiz olunmuş hərbi kabinənin istifadəyə verilməsi bundan sonra da ilkin hərbi hazırlıq fənninin hərtərəfli tədrisinə imkan verəcəkdir.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir: "Qarabağlar kənd 1 nömrəli tam orta məktəbi tarixən muxtar respublikanın nümunəvi təhsil ocaqlarından olmuşdur. Bu gün də məktəbin nailiyyətləri qənaətləndiricidir. Ötən tədris ilində 12 məzun ali məktəbə, 3-ü orta ixtisas məktəbinə qəbul olunmuş, tələbə adını qazanan məzunlardan 2-si 500-700 intervalında yüksək bal toplamış,

*Ardı 2-ci səhifədə*





1 şagird məktəbi qızıl medalla bitirmişdir. Məktəbin təhsil sahəsində qazandığı uğurlar dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş, müəllimlərindən 1-i "Tərəqqi" medalına, 2-si "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 1-i "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülmüş, 1-i isə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşdur. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Müəllim adı ən yüksək addır".*** Bu gün Qarabağlar kənd 1 nömrəli tam orta məktəbinin pedaqoji kollektivi də öz fəaliyyətlərilə, ilk növbədə, müəllim adını doğrultmalı, məktəbdə təhsili, dünyagörüşlü və vətənpərvər gənclər yetişdirilməli, nailiyyətlər artırılmalıdır".

Müəllimlərdən Gülçin Cəfərova və Turac Məmmədova kollektiv adından minnətdarlıq edərək demişlər ki, müasir məktəb binası şagirdlərin böyük sevincinə səbəb olmuşdur. Çünki muxtar respublikada təhsilə göstərilən qayğı, yeni məktəb binalarının tikilməsi gənclərin hərtərəfli böyüməsinə hesablanmış tədbirlərdir. Yaradılan şərait müəllimlərin üzərinə mühüm vəzifələr qoyur. Təhsilli və vətənpərvər gənclərin hazırlanması istiqamətində səylə çalışmaq, göstərilən etimada uğurlu nailiyyətlərlə cavab vermək bundan sonra da məktəbin pedaqoji kollektivinin fəaliyyətində əsas istiqamət kimi götürüləcəkdir.

Məktəb binasının həyətində də geniş abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

## Xidmət mərkəzi kənd sakinlərinin gündəlik tələbatını ödəyəcəkdir





Qarabağlar kəndində aparılan kompleks quruculuq tədbirləri çərçivəsində yeni xidmət mərkəzi də inşa olunmuşdur.

Dekabrın 29-da xidmət mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin açılışını etmiş, burada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları yerləşir. Bu cür zəruri sosial xidmətlərin bir mərkəzdən təşkili əhalinin rahatlığına xidmət edir. Mərkəzdə 7 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra sakinlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, bu gün Qarabağlar kəndində yeni məktəb binasının və xidmət mərkəzinin istifadəyə verilməsi kənddə uşaqların yaxşı təhsil almasına, insanlara lazımi məişət xidmətinin göstərilməsinə imkan verəcəkdir. Qarabağlar kəndi qədim tarixə və zəngin ənənələrə malikdir. Dünya əhəmiyyətli "Qarabağlar" türbəsi bu kənddə yerləşir. Muxtar respublikaya səfər edən turistlərin ən çox üz tutduqları ünvanlardan biri də bu abidədir. Gələcəkdə bu abidənin də bərpa olunması nəzərdə tutulmuşdur. Bu gün kəndin tarixi görkəmi qorunub saxlanılmaqla yanaşı, həm də müasir inkişafına xüsusi diqqət yetirilir, geniş abadlıq-quruculuq işləri aparılır. Sakinlər də yaradılanları qorumalı, kəndin inkişafına öz töhfələrini verməli, kənd yalnız qədim tarixi ilə deyil, həm də müasir inkişafı ilə diqqəti cəlb etməlidir.

Ali Məclisin Sədri bu işlərin görülməsində sakinlərə uğurlar arzulamış, onları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik etmişdir.

Kənd ağsaqqalı Vəli Əsədov demişdir ki, son illər Qarabağlar kəndində geniş quruculuq işləri aparılmışdır. Həyata keçirilən tədbirlər, sakinlərin rifahının yüksəldilməsi istiqamətində görülən işlər dövlətimizin iqtisadi qüdrətinin göstəricisidir. Hər bir sakin ölkəmizin inkişafı, eləcə də onun hər bir bölgəsinin, hər bir kəndinin bu cür müasir görkəm alması ilə fəxr edir, bütün bunları insan amilinə verilən qiymət kimi dəyərləndirir. Vəli Əsədov yaradılan şəraitə görə sakinlər adından minnətdarlıq etmişdir.

* * *

Aparılan quruculuq işləri nəticəsində daha da müasir görkəm alan Qarabağlar kəndinin yol infrastrukturu da yenidən qurulmuş, 3 kilometrdən artıq kənddaxili yola asfalt örtük salınmış, 3 selötürücü, 18 su keçidi quraşdırılmış, 672 metr beton kanal çəkilmişdir. Kənddə nümunəvi rabitə xidmətinin təşkili məqsədilə 1100 metr fiber-optik kabel, 470 metr yeraltı, 250 metr hava xətti çəkilmişdir. Quruculuq işləri zamanı elektrik xətləri və 6 transformator yarımstansiyası da əsaslı təmir olunmuş, 1 ədəd 250 kilovolt-amper gücündə yeni transformator yarımstansiyası quraşdırılmışdır. Kəndin qaz təchizatı da yaxşılaşdırılmış, 560 metr məsafədə yeni qaz xətti çəkilmişdir. Rayon mərkəzindən Qarabağlar kəndinədək olan ortatəziqli qaz xəttində təmir-bərpa işləri aparılmışdır. Həmçinin kənddə 2100 metr məsafədə içməli su xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür*

## Dünya azərbaycanlılarının həmrəyliyi milli birliyin təntənəsidir

***1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanın qarşısında duran başlıca vəzifələrdən biri dünya azərbaycanlılarının vahid bir ideya ətrafında birləşməsi idi. Çünki Ermənistanın ölkəmizə qarşı təcavüzünün davam etdiyi, ermənilərin dünyada antiazərbaycan təbliğatı apardıqları bir vaxtda müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın həmrəyliyinin gücləndirilməsi olduqca mühüm əhəmiyyət kəsb edirdi. Digər tərəfdən tarixin müxtəlif mərhələlərində düçar olduqları məhrumiyyətlər, haqsızlıqlar və digər səbəblərdən dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların təşkilatlanmasının müstəqilliyinə yeni nail olmuş ölkəmizin beynəlxalq aləmdə yerinin möhkəmləndirilməsi işinə böyük töhfələr verəcəyi şübhəsiz idi.***

Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşməsi ideyasının müəllifi ulu öndərimiz Heydər Əliyev olmuşdur. Belə ki, 1990-1993-cü illərdə Naxçıvandan başlanan Heydər Əliyev xilaskarlıq missiyasının əsas qayəsini məhz xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. 1991-ci il dekabrın 16-da ümummilli liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərar qəbul olunmuşdur. Həmin sessiyadakı çıxışında ümummilli liderimiz qərarın tarixi-siyasi əhəmiyyətini vurğulayaraq demişdir: ***"Dünya Azərbaycan türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında müzakirə olunması, böyük siyasi əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, məhz Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür".***

Qərara əsasən, 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd edilmişdir. Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram sonrakı dövrlərdə bu sahədə həyata keçirilən tədbirlərin daha da kütləvi xarakter almasında, xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynamışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyev dünya azərbaycanlılarının təşkilatlanması prosesinin və vahid ideologiya ətrafında sıx birləşməsinin ulu öndərin adı ilə bağlı olduğunu bildirərək demişdir: ***"Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" kimi elan edilmişdir. Bu gün, 31 dekabr bizim milli bayramımızdır".***

23 il əvvəl ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış günü soydaşlarımızın Azərbaycançılıq ideyası əsasında sıx birləşməsi, milli diasporun formalaşması və lobbi fəaliyyətinin inkişafı prosesinin başlanğıcıdır. Dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması milli diasporun formalaşmasında, xarici ölkələrdə Azərbaycan lobbisinin inkişafında başlıca məqamlardan biri olsa da, təəssüflər olsun ki, müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə ölkəmizdə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsi ilə bağlı dövlət siyasəti yürüdülməmişdir. Diaspor quruculuğuna maraq göstərilməməsi soydaşlarımızın vətənlə əlaqələrinin genişlənməsinə, Azərbaycançılıq ideyasının inkişaf etdirilməsinə, dünyaya səpələnmiş azərbaycanlıların həmrəyliyinin əldə olunmasına imkan vermirdi.

Görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi, milli birliyə nail olunması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmiş, Azərbaycançılıq anlayışı milli ideologiyaya çevrilmiş, xaricdə yaşayan həmvətənlərimizin Azərbaycanla əlaqələri genişləndirilmiş, milli diaspor təşkilatlarının yaradılmasına başlanılmışdır. Ulu öndər azərbaycanlıların həmrəyliyinin həm ölkəmiz, həm də xaricdə yaşayan soydaşlarımız üçün mühüm əhəmiyyətə malik olduğunu xüsusi vurğulayaraq demişdir: ***"Harada olursa-olsun, azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycanın daxilində bütün qüvvələri toplayaq. Eyni zamanda Azərbaycandan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar. Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü saxlamaq üçün hamı bütün başqa fikirləri kənara qoyub birləşməli, bir hədəfə vurmalı, bir məqsədə xidmət etməlidir".***

Ulu öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycan dünyanın

*Ardı 3-cü səhifədə*

ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar, mənəvi dayaq və güvənc yeri olmuşdur.

2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvəsi idi. Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı Sərəncama əsasən keçirilmiş qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsinə, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunmasına, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsinə şərait yaratmışdır. Qurultaydakı nitqində Azərbaycançılığın nə qədər önəmli olduğunu, xalqımızın bu ideya ətrafında sıx birləşməsinin vacibliyini bildirən ulu öndərimiz demişdir: ***"Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır, Azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, millimənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".***

Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli ideallarin, Azərbaycançılıq ideyalarının gerçəkləşməsi yolunda mühüm addım idi. Qurultay həm də müstəqil Azərbaycanın və eləcə də dünya azərbaycanlılarının həyatında tarixi ictimai-siyasi hadisə kimi yadda qalmışdır. Qurultaydan sonra diaspor təşkilatlarının fəaliyyətində canlanma yaranmış, soydaşlarımızın bir yerə toplaşdığı təşkilatlar dünyanın hər yerində daha aktiv fəaliyyət göstərməyə başlamışlar.

Milli diasporun formalaşması və dünyada Azərbaycan lobbisinin inkişafı məqsədilə 2002-ci ildə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmış, həmin ilin dekabr ayında "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanun qəbul edilmişdir. Dövlət komitəsinin yaradılması və qanunun qəbul edilməsi, bütövlükdə, dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da sürətləndirmiş, xaricdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən idarə olunmasına və soydaşlarımızın Vətənlə əlaqələrinin möhkəmlənməsinə səbəb olmuşdur. Bu gün dünyanın dörd bir yanındakı azərbaycanlılar yaşadıqları xarici ölkələrdə fəal toplum kimi çıxış edir, cəmiyyətin iqtisadi, ictimai-siyasi və mədəni həyatına daha çox inteqrasiya olunur, həmin ölkələrlə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında yaxından iştirak edirlər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli birlik, həmrəylik və Azərbaycançılıq ideyaları bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Prezidentinin bu sahədə həyata keçirdiyi tədbirlər, soydaşlarımızın vahid ideologiya ətrafında birləşməsi yolunda gördüyü işlər, qəbul etdiyi tarixi qərarlar dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarda milli ruhun yüksəldilməsinə, onların doğma Vətənə bağlılıqlarının artırılmasına səbəb olmuşdur. Prezident İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən, həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Ölkə başçısının 2008-ci il noyabrın 19-da imzaladığı Fərmanla isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmış, dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmişdir. Bu dövrdən etibarən dövlətimizin diaspor siyasəti xaricdə yaşayan soydaşlarımızın daha da mütəşəkkil təşkilatlanması nəticəsində yeni mərhələyə qədəm qoymuş, onların doğma Vətənə olan bağlılıqlarını artırmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin ardıcıl xarakter almasının nəticəsidir ki, bu gün ölkəmizi xaricdə 400-dən çox diaspor təşkilatı təmsil edir.

2011-ci il iyulun 5-də Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarının III Qurultayında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, iş adamları iştirak etmişlər. Qurultay xaricdə yaşayan soydaşlarımız tərəfindən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, zəngin mədəni irsimizin təbliği, təcavüzkar erməni təxribatlarının qarşısının alınması istiqamətində mühüm rol oynamış, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların növbəti birlik və həmrəylik bayramına çevrilmişdir.

Bu gün Azərbaycanın iqtisadi artım tempinə görə dünyanın lider dövlətinə çevrilməsi, Cənubi Qafqazda əsas söz və nüfuz sahibi olması dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi daha da ruhlandırmış, onların müstəqil dövlətimizin xoşbəxt gələcəyinə inamının, özünüdərk hissinin güclənməsinə, ümummilli maraqlar ətrafında sıx birləşməsinə zəmin yaratmışdır. Müstəqil Azərbaycanın əldə etdiyi uğurlar onların milli şüurunu gündən-günə möhkəmləndirir. Odur ki, müxtəlif ölkələrdəki azərbaycanlı diaspor təşkilatları soydaşlarımızın təşkilatlanması, səylərinin birləşdirilməsi, onların fəaliyyətinin məqsədyönlü xarakter alması naminə daha faydalı iş aparır, ölkəmizi daha yaxından tanıtdırmaq üçün müvafiq tədbirlər həyata keçirirlər.

Ulu öndərimiz Heydər Əliyevin milli birlik və Azərbaycançılıq ideyalarını layiqincə davam etdirən ölkə başçısı cənab İlham Əliyevin hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində soydaşlarımıza ünvanladığı təbriklər ümummilli liderimizin siyasi ideyalarına əsaslanan milli həmrəylik siyasətinin dövlət səviyyəsində uğurla həyata keçirildiyini nümayiş etdirir.

*Dünya azərbaycanlılarının həmrəyliyi ümummilli lider Heydər Əliyevin ən böyük arzularından biri idi və ulu öndərin bu arzusu həyata keçmişdir. 31 dekabr tarixinin ən mühüm qayəsi həm də ondan ibarətdir ki, bu əlamətdar gün Azərbaycanın dirçəlişi və inkişafı yolunda əvəzsiz xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü, yenilməz iradəsi sayəsində təsis edilmiş və ümummilli bayrama çevrilmişdir. Dövlət başçısının bu il dekabrın 24-də dünya azərbaycanlılarına ünvanladığı təbrik məktubunda deyildiyi kimi:* ***"Dünyada yaşayan soydaşlarımızın Vətənə və Azərbaycançılıq məfkurəsinə sədaqətini, xalqımızın öz keçmişinə və milli-mənəvi dəyərlərinə ehtiramını əks etdirən bu bayram tarixi yaddaşımızın mühüm tərkib hissəsinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində milli birlik və həmrəylik ideyaları daha dolğun məzmun kəsb edərək real fəaliyyət sahəsi kimi dövlət siyasəti səviyyəsinə yüksəlmişdir".***

**"Şərq qapısı"**

# Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2014-cü ildə fəaliyyəti haqqında illik

## M Ə R U Z Ə

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) muxtar respublikada insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, həmçinin bu hüquqların davamlı inkişafına yönəlmiş tədbirləri 2014-cü ildə də davam etdirmişdir.

Müvəkkil öz fəaliyyətini daxil olan müraciətlərin araşdırılması və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə müvafiq tədbirlərin həyata keçirilməsi, dövlət orqanları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində qurmuşdur.

Müvəkkilin 2014-cü il üçün məruzəsi daxil olan müraciətlərə baxılmasının nəticələri, Preventiv mexanizm funksiyasının icrası, əhalinin müxtəlif sosial qrupları arasında hüquqi maarifləndirmə işinin təşkili, ictimaiyyətlə əlaqələr, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri ilə əməkdaşlıqla bağlı görülən işlərin ümumiləşdirilmiş təhlili əsasında tərtib edilmişdir.

Məruzənin hazırlanmasında həmçinin dövlət orqanlarından alınmış rəsmi məlumatlardan da istifadə edilmişdir.

2014-cü ildə həyata keçirilmiş tədbirlər aşağıdakı istiqamətləri əhatə etmişdir:

***1. Daxil olan müraciətlərin araşdırılması***

2014-cü ildə Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 117 müraciət daxil olmuşdur. Bu müraciətlərin 28-ni şikayətlər, 89-nu isə ərizələr təşkil etmişdir.

Qanunun tələblərinə müvafiq olaraq, şikayətlərin Müvəkkilin səlahiyyətlərinə aid olmaması, ərizəçinin hüquqlarının pozulduğu gündən 1 il müddətin keçməsi, şikayətlə bağlı məhkəmə icraatının getməsi, təkrar təqdim edilmiş şikayətdə yeni məlumat, fakt və sübutların olmaması səbəbindən 5 şikayətə baxılmasından imtina edilmişdir.

23 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, onlardan 4-ü təmin edilmişdir.

19 şikayətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmişdir.

Daxil olan müraciətlərin araşdırılması ilə əlaqədar muxtar respublikanın dövlət və yerli özünüidarəetmə orqanlarına müvafiq sorğular ünvanlanmış, ərizəçilərə hüquqları izah edilmişdir.

Müraciətlərə qanunla müəyyən edilmiş müddətlərdə baxılmış və daxil olan bütün müraciətlər cavablandırılmışdır.

***2. Hüquqi maarifləndirmə sahəsində görülmüş tədbirlər***

2014-cü ildə də Müvəkkil insan hüquq və azadlıqlarının təbliği və hüquqi maarifləndirmə sahəsində fəaliyyətini, əsasən, müxtəlif sosial qruplara ünvanlanan, insan hüquqlarının müxtəlif istiqamətlərini əks etdirən müvafiq tədbirlərin həyata keçirilməsi və maarifləndirici vəsaitlərin hazırlanması istiqamətində davam etdirmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin muxtar respublikada icrası ötən illərdə olduğu kimi, bu il də diqqətdə saxlanmışdır. Proqramda nəzərdə tutulmuş tədbirlərin təbliği və tətbiqi vəziyyətinin öyrənilməsi, habelə görülən işlərin əlaqələndirilməsi məqsədilə muxtar respublikanın müvafiq dövlət qurumları, məhkəmə, hüquq-mühafizə orqanları, vətəndaş cəmiyyətinin, kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə konfrans keçirilmiş və görülən işlər müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar muxtar respublikanın ümumtəhsil, ali və orta ixtisas təhsili müəssisələrindən 680 şagirdin və 180 tələbənin iştirak etdiyi hüquq olimpiadası keçirilmişdir. Olimpiadanın nəticələri Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş tədbirdə açıqlanmış, qaliblər mükafatlandırılmışdır.

Həmçinin aidiyyəti qurumlarla birgə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının təsisçiləri üçün seminar-müşavirələr keçirilmiş, qeyri-hökumət təşkilatlarının hüquq və vəzifələri, məsuliyyəti və bu qurumların fəaliyyəti ilə bağlı qanunvericiliyin tələbləri barədə geniş məlumat verilmişdir.

İnsan hüquqları sahəsində əlamətdar günlər olan 18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Günü və 10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü muxtar respublikanın aidiyyəti dövlət qurumları ilə birlikdə qeyd edilmiş, müvafiq konfranslar keçirilmişdir.

Ümumilikdə, 2014-cü il ərzində Müvəkkil təsisatı tərəfindən insan hüquqlarının müxtəlif istiqamətləri üzrə müxtəlif sosial qruplara ünvanlanmış 86 tədbir keçirilmiş, o cümlədən hüquqi maarifləndirici vəsaitlər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

***3. Hərbi qulluqçuların hüquqlarının müdafiəsi***

Hərbi qulluqçuların hüquqlarının müdafiəsi və təbliği Müvəkkilin daim diqqət mərkəzində olmuş, orduda insan hüquqları, qanunçuluq və nizamnaməyə uyğun xidmətin təşkili, vətənpərvərlik və Vətənə sədaqət mövzularında maarifləndirici tədbirlərin həyata keçirilməsi 2014-cü ildə də ardıcıl davam etdirilmişdir.

Bu istiqamətdə səylərimizin birləşdirilməsi və fəaliyyətimizin əlaqələndirilməsi məqsədilə Əlahiddə Ümumqoşun Ordusu və "Naxçıvan" Sərhəd Diviziyası ilə birgə hazırlanmış tədbirlər planına əsasən, muxtar respublika ərazisindəki birləşmə və hərbi hissələrdə müvafiq tədbirlər keçirilmiş, insan hüquqlarına dair vəsaitlər təqdim edilmişdir.

Bununla yanaşı, hərbi qulluqçular və onların ailə üzvlərinin Müvəkkilə ünvanlanan müraciətlərinə müvafiq qaydada baxılmışdır.

***4. Məhkumların hüquqlarının müdafiəsi***

2014-cü ildə məhkumların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmənin həyata keçirilməsi davam etdirilmiş, Müvəkkil və aparatın əməkdaşları müntəzəm olaraq Ədliyyə Nazirliyinin tabeliyində olan cəzaçəkmə müəssisələrində olmuş, məhkumların hüquqlarının təmin edilməsi vəziyyətini öyrənmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 6 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 6 məhkum barəsində cəzanın növünün dəyişdirilməsi tətbiq edilmiş, 1 nəfər isə cəza çəkməkdən azad edilmişdir.

Ümumilikdə, 2014-cü il ərzində cəzaçəkmə müəssisələrində cəza çəkən 13 məhkum barəsində belə humanist tədbirlər tətbiq edilmişdir.

Bununla yanaşı, ötən il ərzində Ədliyyə Nazirliyi ilə hazırlanmış birgə tədbirlər planına əsasən, cəzaçəkmə müəssisələrində insan hüquqlarının müxtəlif istiqamətləri üzrə maarifləndirici tədbirlər davam etdirilmiş, müəssisənin kitabxanalarına hüquqi vəsaitlər təqdim edilmişdir.

***5. Preventiv mexanizm funksiyasının icrası***

2014-cü ildə Müvəkkillik tərəfindən Preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 29 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 144 başçəkmə həyata keçirilmişdir.

Bu və ya digər müəssisəyə başçəkmə zamanı saxlanma şəraiti, habelə məhkumlara tətbiq olunan islahetmə vasitələri, işçi heyətinin rəftarı, qida rasionu, qidanın keyfiyyəti, tibbi xidmətin vəziyyəti, onların asudə vaxtının təşkili kimi məsələlər xüsusi diqqət mərkəzində saxlanılmış, saxlanılan şəxslərlə görüşlər keçirilmiş, onlarla ümumi və fərdi söhbətlər aparılmış, hüquq və vəzifələri izah edilmişdir.

Qeyd edilməlidir ki, Preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu müəssisələrdə saxlanılan şəxslərin sosial, tibbi, habelə qanunla müəyyən edilmiş digər hüquqlarının təmin edilməsi, həmçinin onların asudə vaxtının təşkil edilməsi üçün müasir standartlara uyğun müvafiq şərait yaradılmışdır.

***6. Beynəlxalq təcrübə mübadiləsi sahəsindəki əlaqələrin təşkili***

Müvəkkil beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri və digər ölkələrin Müvəkkil təsisatları ilə insan hüquqları sahəsində həyata keçirilən maarifləndirmə, bu sahədə təcrübə mübadiləsi və əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində işlərini davam etdirmişdir.

***7. İnformasiya və ictimaiyyətlə əlaqələrin təşkili***

Müvəkkilin rəsmi internet səhifəsində informasiyaların mütəmadi olaraq yenilənməsi, qanunvericilik bazasının daha da zənginləşdirilməsi, muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlərin, o cümlədən Müvəkkil və təsisatın fəaliyyətinin işıqlandırılması, elektron müraciət səhifəsinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılmışdır.

Bununla yanaşı, muxtar respublikanın 90 illik yubileyi ilə əlaqədar Müvəkkilin rəsmi internet səhifəsində yeni bölmə yaradılmış, muxtariyyətin hüquqi və tarixi əsasları, 90 illik inkişaf tarixi, həmçinin son 19 ildə muxtar respublikada hüquqi dövlət quruculuğu, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumatlar əks etdirilmişdir.

2014-cü ildə insan hüquqlarının pozulmasının qarşısının alınması, pozulmuş hüquqların bərpası, o cümlədən maarifləndirici tədbirlərin həyata keçirilməsi sahəsində görülən işlərin təhlili göstərir ki, insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi məqsədilə dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq sahəsində əldə edilən müsbət təcrübə daha da inkişaf etdirilməli və mütəmadi təkmilləşdirilməlidir.

Öz fəaliyyətini şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında quran Müvəkkil təsisatı digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmadan və onları əvəz etmədən muxtar respublikamızda yaradılan şəraitdən istifadə edərək bundan sonra da üzərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində səylərini davam etdirəcəkdir.

*30 dekabr Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaranması günüdür*

# Muxtar respublikada fövqəladə halların qarşısının vaxtında alınması təmin edilmişdir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi yaradılmışdır.*

Yarandığı gündən nazirliyin fəaliyyət istiqamətlərinə uyğun sahələr üzrə normativ-hüquqi aktlar, yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyət planları, təlimlərin, məşqlərin keçirilməsi üzrə təlimatlar, xidmətlərin əsasnamələri işlənib hazırlanmışdır. Bu gün muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin, su hövzələrində və tikintidə insanların təhlükəsizliyinin, eləcə də sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması sahələrində məqsədyönlü tədbirlər həyata keçirilir. Nazirliyin əməkdaşları fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında fədakarlıq nümayiş etdirirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***“Fövqəladə Hallar Nazirliyi öz fəaliyyətini fövqəladə hadisələrin qarşısının alınması, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində qurur. Ölkəmizdə, eləcə də muxtar respublikamızda nazirliyin fəaliyyəti tam təmin olunmuş, struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. İnsanların həyatının, dövlət əmlakının, fərdi təsərrüfatların və sahibkarlıq subyektlərinin baş verə biləcək hadisələrdən qorunması nazirliyin və onun müvafiq qurumlarının qarşısında duran başlıca vəzifələrdir”.***

Muxtar respublikada Fövqəladə Hallar Nazirliyinin əməkdaşları üçün müasir iş şəraitinin yaradılması və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində 2014-cü ildə Sədərək rayonunda Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası tikilib istifadəyə verilmişdir. Zabit və gizirlər üçün Naxçıvan şəhərində 7 mərtəbəli 48 mənzilli yeni xidməti yaşayış binasının tikintisi isə davam etdirilir.

Fövqəladə halların xəbərdar edilməsi, onların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasının mühüm istiqamətləri üzrə fəaliyyətin təşkilində yüksəkixtisaslı mütəxəssislərin hazırlanması vacib şərtdir. Ona görə də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin ixtisaslı kadrlarla təminatı diqqət mərkəzində saxlanılır, struktur qurumların komplektləşdirilməsi yönündə ardıcıl tədbirlər görülür. Bu il 30 nəfər hərbi qurumlarda həqiqi hərbi xidmətə, 14 nəfər yanğın təhlükəsizliyi orqanlarında xidmətə, 6 nəfər dövlət qulluğu vəzifələrinə, 5 nəfər isə mülki işə qəbul edilmişdir.

Müasir dövrün tələblərinə uyğun iş prosesinin təşkil olunması məqsədilə nazirliyin tabeliyindəki qurumların peşəkarlıq səviyyəsi artırılır, baş verə biləcək təbii və texnogen xarakterli fövqəladə halların qarşısının alınması, nəticələrinin aradan qaldırılması və əhalinin xəbərdar edilməsi məqsədilə taktiki təlimlər və məşğələlər keçirilir. Nazirliyin struktur qurumlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülür. Bu il də bu məsələ diqqət mərkəzində saxlanılmış, 1 ədəd İVECO markalı yanğın avtomobili və digər texnika və ehtiyat hissələri alınıb nazirliyin bazasına təhvil verilmişdir.

Muxtar respublikada fövqəladə halların qarşısının alınmasında, baş verən fövqəladə hadisələrin aradan qaldırılmasında və əhalinin bu istiqamətdə maarifləndirilməsində nazirliyin tabeliyindəki idarələr səmərəli fəaliyyət göstərir. Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və rayon (şəhər) şöbələri tərəfindən İcra hakimiyyətləri, yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər tərəfindən yanğın təhlükəsizliyi ilə bağlı müəyyən olunmuş tələblərin yerinə yetirilməsinə nəzarət edilmiş, yaşayış məntəqələrində və inzibati binalarda yanğınsöndürmə qurğularının vəziyyəti yoxlanılmış, yanğın təhlükəsizliyi qaydalarının tələblərinin pozulmasının qarşısı alınmışdır. Müvafiq dövlət orqanlarının əməkdaşları ilə birlikdə reydlər keçirilərək 647 ədəd əlavə çəkilmiş elektrik xəttinin və qeyri-standart elektrik qızdırıcılarının, 526 ədəd qeyri-standart boru ilə çəkilmiş qaz xəttinin və qaz sobalarının istismarı dayandırılmış, yaşayış məntəqələrində yanğın təhlükəsizliyinin təmin edilməsi ilə bağlı yoxlamalar keçirilərək “Şəxsi və dövlət yaşayış evlərində yanğın təhlükəsizliyi qaydaları” barədə tövsiyələr təqdim edilmiş, vətəndaşlar yanğına qarşı təlimatlandırılmışlar.

Nazirliyin **“112”** qaynar telefon xəttinin fasiləsiz fəaliyyəti təmin edilmiş, mütəmadi olaraq Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi ilə struktur qurumlar arasında videokonfrans əlaqəsi yaradılmış, elektron xəritənin məlumat bazasında yerləşdirilmiş 1705 obyektin məlumatı dəqiqləşdirilmişdir. Mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarə orqanlarında və təsərrüfat obyektlərində mülki müdafiə təlimi, təhsil, səhiyyə, mədəniyyət ocaqlarında müxtəlif səpkili konfrans və digər maarifləndirici tədbirlər keçirilmiş, kütləvi informasiya vasitələrində məlumatlar təqdim olunmuşdur.

Əhalinin və ərazilərin fövqəladə hallardan qorunması və qarşısının alınması, radiasiya təhlükəsizliyinə, sənayedə və mədən işlərində texniki təhlükəsizliyə nəzarət kimi mühüm vəzifələrin icrasının təmin edilməsi də diqqət mərkəzində saxlanılır. Nazirliyin səlahiyyət dairəsinə uyğun olaraq, 11 yeni təhlükə potensiallı obyekt, 126 avadanlıq və qurğu dövlət reyestrində qeydiyyata alınmış, 46 texnoloji nəqliyyat vasitəsinə dövlət nömrə nişanları və qeydiyyat şəhadətnamələri verilmiş, 32 müəssisədə 278 ədəd təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılmışdır. İstehsal təyinatlı obyektlərdə texniki təhlükəsizliyin təmin edilməsi üzrə nazirliyin nəzarət funksiyaları artırılmış, təhlükə potensiallı obyektlərdə mühafizə işinin təşkili ilə bağlı yoxlamalar aparılmış, işçilər texniki təhlükəsizlik üzrə attestasiyadan keçirilmişlər.

Əhalinin ehtimal olunan radioaktiv, kimyəvi zəhərlənmələrdən mühafizəsinin təşkilində operativliyi təmin etmək məqsədilə Şərur və Sədərək rayonlarında mülki müdafiə səfərbərlik anbarları yaradılmış, həmin rayonların əhalisinin sayı qədər əleyhqaz tədarük olunmuşdur. Yanğına qarşı tədbirlərin gücləndirilməsi məqsədilə 2014-cü ildə 2 min 729 obyektdə əsaslı, 2 min 827 obyektdə nəzəri, 1691 obyektdə məqsədli yoxlamalar aparılmış, 106 min 854 şəxsi yaşayış evində, 324 dövlət yaşayış binasında reydlər keçirilmiş, yanğın təhlükəsizliyi tədbirləri görülmüşdür.

Hər bir dövlət üçün ərzaq təhlükəsizliyi strateji əhəmiyyət kəsb edən ən mühüm amillərdəndir. Buna görə də nazirliyin əməkdaşları muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı görülən işlərin etibarlı təşkilini diqqət mərkəzində saxlayır. Bu məqsədlə yaradılmış Dövlət Taxıl Fondunda saxlanılan taxılın saxlanma şəraiti, yanğın və texniki təhlükəsizlik məsələləri mütəmadi olaraq yoxlanılır, taxılın dövriyyəsi barədə 6 aylıq və illik məlumatlar hazırlanır. Taxıl biçininə hazırlıq dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə kənd təsərrüfatı texnikalarına, dəyirman və yem anbarlarına baxış keçirilir, torpaq mülkiyyətçiləri və yerli özünüidarə orqanları ilə seminar-müşavirələr təşkil olunur, yanğına qarşı təlimatlandırma işləri aparılır.

Fövqəladə hallar sahəsində qarşılıqlı münasibətlərin formalaşması, beynəlxalq təcrübələrin əldə olunması yolu ilə işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində də məqsədyönlü işlər görülür. Bu il sentyabrın 16-17-də Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Şurasının sənaye təhlükəsizliyi üzrə XII iclasının Naxçıvan şəhərində təşkil olunması buna misaldır.

Nazirliyin fəaliyyəti hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Xidməti vəzifələrinin icrasında yüksək nailiyyətlər əldə etdiklərinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin bir əməkdaşına ali hərbi rütbə verilmiş, 2 zabit “Hərbi xidmətlərə görə” medalı ilə təltif olunmuşdur.

*Görülən işlər və əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin kollektivi əhalinin təhlükəsiz yaşamasının, iş və istirahətinin etibarlı təmin olunması üçün hər an hazırdır. Nazirliyin şəxsi heyəti bundan sonra da öz fəaliyyətini müasir dövrün tələbləri səviyyəsində quracaq, əhalinin və ərazilərin təhlükəsizliyi naminə səylərini daha da artıracaqdır.*

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti**

# “Muzey günləri” davam etdirilir

***Muzeylər bəşəriyyətin çoxəsrlik tarixinə şahidlik etmiş qiymətli sərvətlər qalereyasıdır. Xalqın tarixi, elmi və mədəni abidələrinin, maddi və mənəvi dəyərlərinin qorunması, saxlanılması, təbliğ edilməsi və gələcək nəsillərə ötürülməsində muzeylərin müstəsna əhəmiyyəti vardır.***

Bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan torpağının qədim tarixi, zəngin mədəniyyəti ilə tanışlıq məqsədilə muxtar respublikada fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının, eləcə də digər təşkilat və qurumların əməkdaşlarının Naxçıvan şəhərindəki muzeylərə ekskursiyaları davam etdirilir.

Dekabrın 27-də “Muzey günləri” çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Açıq Səma Altında Muzeydə olmuşlar. Məlumat verilmişdir ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 11 iyun tarixli Sərəncamı əsasında yaradılmışdır. Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında yerləşən muzeyin üç hektara yaxın ərazisi var. XII əsrin yadigarı, Naxçıvan memarlıq məktəbinin dəyərli nümunəsi olan Möminə xatın türbəsi də bu ərazidədir. Açıq Səma Altında Muzeyin ekspozisiyası müxtəlif növ daşlardan hazırlanmış qoç fiqurları, qədim daş kitabələr, qəbirüstü daşlar,



sütun altlıqları və digər eksponatlardan ibarətdir. Buradakı daş qoç, şir fiqurlu, sənduqə, zəyərəkdaşı, sinədaşı, dibəkdaşı və onlarla digər eksponatlar xalqımızın tarixi yaddaşını özündə əks etdirir. Muzeydə eramızdan əvvəl IV-I minilliyə aid olan Gəmiqaya abidəsindən gətirilmiş və Tunc dövrünə aid qayaüstü rəsmlər də nümayiş etdirilir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi Açıq Səma Altında Muzeydə, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Daxili İşlər Nazirliyinin kollektivləri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, Milli Təhlükəsizlik Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin kollektivləri “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyində, Dövlət Gömrük Komitəsinin və İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının əməkdaşları Ədəbiyyat Muzeyində, Maliyyə, Vergilər nazirliklərinin kollektivləri isə Naxçıvan Dövlət Tarix Muzeyində olmuşlar.

**Xəbərlər şöbəsi**

# Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilmişdir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən Naxçıvan şəhərindəki “Duzdağ” otelində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş və 2014-cü ildə muxtar respublikanın ictimai həyatında fərqlənən gənclərin mükafatlandırılması ilə bağlı tədbir keçirilmişdir.



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək bu il də muxtar respublikamızda idman və gənclərlə iş sahələrində həyata keçirilən tədbirlərdən danışmış, əldə olunan nailiyyətlərdən bəhs etmişdir.

Qeyd olunmuşdur ki, 2014-cü il muxtar respublika gənclərinin və idmançılarının bir çox ölkə və beynəlxalq səviyyəli yarışlarda uğurlu çıxışları ilə yaddaqalan olmuşdur. Nazirin sözlərinə görə, 2014-cü ildə Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə dövlət gənclər siyasəti, eləcə də idman sahəsində 167 tədbir keçirilmiş, bunlardan 85-i gənclərlə iş, 82-si isə kütləvi bədən tərbiyəsi və idman sahələrini əhatə etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin bu gün Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirildiyini bildirmiş, son illər gənclərimizin muxtar respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakından və gənclərin bu sahələrdəki uğurlarından danışmışdır.

Sonra Naxçıvan Dövlət Universitetinin tələbəsi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin fəal üzvü Çilənay Qurbanlı çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikamızda gənclərə göstərilən diqqət və qayğıdan danışmış, gənclər adından minnətdarlıq etmişdir.

Daha sonra muxtar respublikanın ictimai həyatında fərqlənən gənclərin mükafatlandırılması mərasimi olmuşdur.

Bayram tədbiri konsert proqramı ilə davam etdirilmiş, ifa olunan musiqi nömrələri və mahnılar gənclərdə xoş ovqat yaratmışdır.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 1082